**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.278**

**ZENFİRA SEYİDOVA***

# HEYDƏR ƏLİYEV OBRAZI SƏNƏT ƏSƏRLƏRİNDƏ

*Böyük tarixi şəxsiyyət Heydər Əliyevin bədii obrazı müasir təsviri sənətimizin çox maraqlı, aktual, rəngarəng əsərlərlə zəngin olan mövzularındandır. Azərbaycan və dünyanın bir çox sənətkarları ulu öndərin bədii-estetik baxımdan mükəmməl obrazını yaratmışlar. Məqalədə müxtəlif sənət adamları tərəfindən ulu öndərin şəxsiyyətinə olan sonsuz məhəbbətin, yaradıcı marağın rəngarəng təzahürləri geniş formada öz əksini tapmışdır.*

**Açar sözlər:** *Mədəniyyət, rəssam, memar, obraz.*

## Giriş

Azərbaycan xalqı dünyaya Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Şah İsmayıl Xətai və digər böyük şəxsiyyətlər bəxş edibdir. Heydər Əliyev bu tarixi şəxsiyyətlər içərisində özünəməxsusluğu ilə fərqlənir. Ona görə ki, bu təkcə tarixi yaradan tarixi simalardan deyil, həm də tarixin obyektiv, dürüst və yüksək səviyyədə yazılmasının təşkilatçısıdır. Bir sözlə, Heydər Əliyev həmişə tarixə və tarixi şəxsiyyətlərə qiymət verməyi bacarıbdır. Bu mənada ulu öndərimiz deyibdir: "Qeyd etmək istəyirəm ki, tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər. Buna görə də tarixi mövzulu əsərlər yaratmağa girişməzdən əvvəl ədib öz qüvvə və imkanlarını götür qoy etməli, böyük ciddi hazırlıq işi aparmalıdır". Heydər Əliyev təkcə ictimai-siyasi xadim deyildi, mədəniyyətin bütün sahələrini duyan, duyduqlarına qiymət verməyi bacaran, hər bir sənət əsəri barəsində orijinal fikir söyləyən yaradıcı bir insan idi.

## Əsas məzmun

Heydər Əliyev Azərbaycan mədəniyyətinin keçdiyi çox əsrlik tarixi dərindən bilirdi və mütəxəssis səviyyəsində ədəbiyyat, incəsənət, kino, teatr, balet, təsviri-incəsənət eləcə də digər sahələrin əsərlərini təhlil etməyi bacarırdı. Onun mədəniyyətimizin müxtəlif sahələri ilə bağlı verdiyi təhlillər mütəxəssisləri heyran qoyur, eyni zamanda onları ilhamlandırır, yeni-yeni tədqiqatlar aparmağa səsləyirlər. Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafında göstərdiyi xidmətlər hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Onun Azərbaycan mədəniyyəti və onun təbliği sahəsindəki xidmətləri hər dəfə Azərbaycanı bir daha dünyaya tanıtmışdır. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərəsi inşa edilmiş, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəlləri ucaldılmış, şəhidlərin xatirə kompleksi və bir sıra digər monumental sənət əsərləri yaradılmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın görkəmli şəxsiyyətləri H.Cavidin, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun, Niyazinin, S.Vurğunun və başqalarının ev muzeyləri yaradılmışdır.

Qeyd edək ki, Heydər Əliyev Azərbaycan mədəniyyətinin mənəvi inkişafında, tərəqqisində, formalaşmasında tarixi xidmətlər göstərən nadir bir şəxsiyyətdir. Bütün varlığı ilə, bütün ruhu ilə, bütün qəlbi ilə Azərbaycan mədəniyyətinə bağlı olan bu nadir və işıqlı şəxsiyyət xalqın soy-kökünə qayıdışı üçün çoxlu tarixi xidmətlər göstərmişdir. Ulu yazarımız H.Cavidin cənazəsinin qalıqlarının uzaq Sibir torpağından vətənə gətirilməsi yalnız və yalnız Heydər Əliyevin sağlam məfkurəsinin, dərin düşüncəsinin qiymətli məhsuludur.

Muzeylərin açılması, heykəllərin qoyulması bu dahi şəxsiyyətin Heydər Əliyevin qaynar fəaliyyəti ilə, sənətə və sənətkara göstərdiyi yüksək qayğının parlaq ifadəsidir.

Bu bir tarixi həqiqətdir ki, Heydər Əliyev düşüncəsinin, təfəkkürünün sayəsində klassiklərimizə layiqli qiymət verilmişdir. Nizaminin, Nəsiminin, S.Vurğunun yubileylərinin dünya səviyyəsində keçirilməsi məgər Azərbaycan ədəbiyyatının geniş mənada təbliği deyilmi? (3, s.17).

"Kitabi Dədə Qorqud" dastanının 1300 illik yubileyinin dünyada geniş şəkildə qeyd edilməsi, onlarla yazıçının, aktyorun, bəstəkarın, rəssamın, heykəltaraşın yüksək orden və fəxri adlarla təltif olunmaları məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev türk dünyasının çiçəklənməsi və bütövlüyü üçün böyük əzmkarlıq göstərir. Əgər Qobustan qaya rəsmləri bizim tariximizin qədimliyini, Dədə Qorqud boyları xalqımızın qəhrəmanlıq və müdrikliyinin, Babək xalqımızın yenilməzliyinin, Şah İsmayıl Xətai zəka və birliyimizin, Əcəmi mədəniyyət və incəsənətimizin təcəssümü idisə, müasir dövrdə bu şəxsiyyətlərin davamçısı məhz Heydər Əliyevdir. Çünki, Heydər Əliyev də tikib, qurub, mədəniyyət və incəsənətimizin çiçəklənməsinə daim qayğı göstəribdir (1).

Bəli, Heydər Əliyev məhz bu yüksək keyfiyyətlərinə görə insanların qəlbində öz möhtəşəm heykəlini ucaltdı. Ona görə də sənətkarlarımız tərəfindən onun obrazı yüksək qiymətləndirildi. Bu gün fəxrlə demək olar ki, istər poeziyada, kinoda, musiqidə, rəssamlıqda, heykəltaraşlıqda bu obraza geniş yer verildi. O, xalqı sevdiyi qədər xalq da onu sevdi. Adını əbədiləşdirmək üçün neçə-neçə sənət əsərləri yarandı, adına nəğmələr qoşuldu. Heydər Əliyev obrazı Azərbaycan təsviri sənətində olduqca geniş mövqe tutur. Rəssamlarımız dahi şəxsiyyətin, keçdiyi şərəfli yoluna məhəbbət duyaraq incəsənətin müxtəlif sahələrində əsərlər yaratmışlar. Hər bir rəssam ulu öndərin obrazını fırça ilə çəkmək üçün onun həyat yolunu dərindən öyrənmişlər. Hər bir sənətkar yaratdıqları əsərlərdə ulu öndərin daxili aləmini, dünyaya baxışını çox incə məqamlarla aça bilmişlər. Çəkilmiş sənət əsərlərində Heydər Əliyev dünyası boyalar vasitəsilə canlandırılmışdır. Mədəniyyət, incəsənət yüksək obraz yaratmaqla cəmiyyəti böyük ideyalar, bəşəri anlayışlar ətrafında səfərbər edir. Bu baxımdan çağdaş Azərbaycan gerçəkliyində sənətin ən böyük obrazı xalqımızın tarixi taleyində misilsiz rol oynamış ümummilli lider Heydər Əliyev şəxsiyyətidir. Ümummilli lider Heydər Əliyev barədə kinoserialı kinorejissor Vaqif Mustafayev çəkmişdir. Vaqif Mustafayevin dediklərindən: "Mən Heydər Əliyev barədə 12 film çəkməyi qərara almışdım. Bu rəqəmin şərq aləmində xüsusi mənası var. Həmin filmlərdən səkkizini çəkməyə nail olmuşam. Və bunu sənətdə ən böyük uğurum sayıram. Bu xoşbəxtliyi mənə tariximizin ən böyük azərbaycanlısı bəxş edib.

"Qəhrəmanımın xarakteri, yaşadığı ömür cazibəsi ilə məni özünə bağlayır, bu insana məftunluğum artdıqca yaradıcılıq fantaziyam qanadlanır, enerjim, həvəsim, birə-beş artırdı. Lakin bir qənaət mənə hakim kəsilmişdi. Heydər Əliyev barədə nəyisə artırmaq, yaxud azaltmaq onun obrazının təbiiliyini pozar, bütünlüyünə mane olar. Bu insanın ömür yolunu gözü yumulu lentə köçürmək isə mükəmməl bir film deyil, kinoxronika olardı. Əvvəllər bədii obrazlar yaratmış bir rejissor kimi görürdüm ki, Heydər Əliyevin canlı obrazı da əsl bədiyyət səviyyəsindədir. Bu insan sanki dahi bir rejissor kimi həyatda hər addımına, hər əməlinə xüsusi quruluş vermiş, nümunəvi bir qəhrəman kimi yaşamışdır. Onun ömrünün hər epizodu ölçülüb – biçilmiş, yüksək bədiyyatla yaradılmış ssenari parçası idi".

Ulu öndər Heydər Əliyevin obrazı təkcə Azərbaycan sənətkarlarının deyil, eyni zamanda dünya sənətkarları da bu fenomen şəxsiyyətin obrazının müxtəlif sənət əsərlərində təsvir etmişdirlər. Qeyd edək ki, 2007-ci il dekabrın 15-də Londondakı məşhur Madam Tüsso Muzeyinin "Dünya liderləri" salonunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mumdan hazırlanmış heykəli – fiquru müxtəlif ölkələrin və epoxaların görkəmli dövlət xadimləri və siyasətçilərinin fiqurları arasında öz fəxri yerini tutmuşdur. Qeyd edək ki, Rusiyadan savayı muzeydə indiyədək MDB ölkələrindən heç birinin liderinin fiquru qoyulmamışdır.

Heydər Əliyev mum-heykəl fiquru üzərində iş Londondakı Madam Tüsso Muzeyinin təşəbbüsü ilə başlanılmışdır. Mum-fiqurun müəllifi, muzeyin əməkdaşı, Stiv Sueys demişdir: "Mən heykəl-fiqur üzərində işə başlayanda bu şəxsiyyət haqqında geniş informasiya əldə etmək üçün Bakıya getdim. Heydər Əliyev fondunda oldum, xeyli arxiv materiallarını öyrəndim, minlərlə fotoşəkilə baxdım. Mən onu şəxsən tanıyan adamlarla görüşdüm". Heykəltaraş bildirmişdir ki, Heydər Əliyevin xarakterinin müxtəlif xüsusiyyətlərini açmağa, onu həm prezident, həm də adi insan kimi təsvir etməyə çalışmışdır. Fiqur üzərində iş ümumən yarımilədək çəkmişdir (4, s.18).

Ümummilli liderin heykəl-fiquru bütün boyu hündürlüyündə hazırlanmışdır. Onun əynində smokinq, ağ köynək və yaxasında kəpənək qalstuk var. Heydər Əliyevin müdrik baxışları uzaqlara dikilmiş, üzərində yüngül təbəssüm, qamətində arxayınlıq və əminlik hiss edilir. Qoluna ulu öndərin

sağlığında gəzdirdiyi saat taxılmışdır.

Dünya sivilizasiyasının yaranma mərkəzlərində olan xalqlar öz tarixlərini həmişə daş-qaya, gil lövhələr üzərində yazmışlar. Azərbaycan xalqı isə öz tarixini təkcə qaya daşlarının, metalın üzərində deyil eyni zamanda xalçalar üzərində də yazmışdır.

Azərbaycanda xalçaçılığın tarixi çox qədimdir. Hətta qədim Midiyada, Mannada xalçaçılığın təsviri sənətlə əlaqədar olan, süjetli portret janrı geniş inkişaf etmişdir. O dövrlərdə hökmdarlar üçün böyük xalılar toxunurdu. Bunların üzərində təbiət təsvirləri və yaxud da hər hansı bir fəslin təsviri öz əksini tapırdı. Lakin bununla bərabər, biz o dövrdə də eramızdan əvvəl birinci minilliklərdə hökmdarların portretləri toxumuş, yaxud da süjetli, böyük xalçalara rast gəlirik. E.ə I-V əsrlərdə Xosrov Pərvizin portreti toxunmuş xalça, yaxudda onun oğlu Şuriyyənin tac qoyma mərasimini əks etdirən xalçalar haqqında məlumat var. Ümumiyyətlə, Azərbaycan xalqı xalçaya bağlı xalqdır. Xalqımız hörmət bəslədiyi insanlara hədiyyələr edərkən xalçalara üstünlük verir. Hansı əsrlərdə olursa olsun, azərbaycanlılar dövlət, elm xadimlərinə yaxud da qonaqlara həmişə xalça bağışlamışlar.

Kamil Əliyev keçən əsrin 60-cı illərindən başlayaraq dünyanın bir çox tanınmış şəxsiyyətlərinin M.Füzulinin, N.Gəncəvinin, Nəsiminin, M.K.Atatürkün və başqalarının portretlərini xalça üzərində böyük ustalıqla yaratmışdır.

Kamil Əliyevin üzərində bir ildən artıq işlədiyi ulu öndərimiz Heydər Əliyevin general formasında təsvir olunduğu portret xalça, rəssamın yaratdığı ən nadir sənət incilərindəndir.

Kamil Əliyev bu əsərin yaradılmasını belə xatırlayırdı: "Görkəmli insanın portretinin yaradılması xeyli məsuliyyət tələb edirdi. Mən Heydər Əliyevin portretini onun general formasında yaratmaq, hamıya onun hələ gənc ikən layiq görüldüyü general rütbəsini xatırlatmaq bununla da bizim gənc döyüşçülərimizi, çağırışçılarımızı ruhlandırmaq fikrində idim. 1998-1999 – cu illərdə görkəmli-siyasi xadimimiz Heydər Əliyevin döyüşçü, general formasında təsvir olunan xalçanın iki variantını hazırladım.

Xalça ipəkli, təbii boyanmış saplardan toxunmuşdur. Xalçada 1 milyon 200 mindən artıq ilmə var. 50-ə qədər rəngdən istifadə olunub. Xalçanın fonunda ümummilli lider Heydər Əliyev qəhvəyi hərbi mundirdə təsvir olunmuşdur. Bu əsərdə rəssam Heydər Əliyevin baş komandan kimi qətiyyətini, mahir siyasətçi kimi uzaqgörənliyini, ölkə başçısı kimi müdrikliyini, üz cizgilərində, baxışlarında ifadə etmişdir. Xalçanın aşağı hissəsində odlar yurdunun rəmzi mənası olan Buta təsviri milli ornamentlərlə işlənmişdir. Xalçaçı rəssam Kamil Əliyev deyir ki, "Xoşbəxt sənətkaram ki, bu şəxsiyyətin parlaq obrazını yaratmışam".

Azərbaycan Rəssamlar İttifaqının üzvü, istedadlı rəssam Tahir Məcidov tərəfindən hazırlanmış Heydər Əliyevə həsr olunmuş "Qayıdış" xalçası ölkəmizin qədim tarixi ilə bu günü arasında dialektik vəhdət yaradan sənət əsəridir. Rəssam xalçanın mərkəzində təsvir etdiyi ulu öndərimizin sevinc ifadə edən simasını və sol əlini yuxarı qaldıraraq Pirəbədil xalçasının üzərində iri addımlarla hərəkətini olduqca ifadəli və real şəkildə canlandırmışdır. Dahi rəhbərin üz cizgiləri, sürməyi rəngli kostyumu və qırmızı qalstuku xalçaya xüsusi bir canlılıq vermişdir. Fonda üç rəngli bayrağın təsviri verilmişdir (2, s.17,18).

Məlum olduğu kimi, 1993-cü ilin iyun ayında xalq azadlığını, müstəqilliyini qorumaq, Azərbaycanı üzləşdiyi bəlalardan, daxili və xarici təhlükələrdən qorumaq üçün Heydər Əliyevin Bakıya dəvət olunmasını təkidlə tələb etdi. Uzaqgörən siyasətçi, müdrik el ağsaqqalının qayıdışı rəssam Tahir Məcidovun fikrində, xəyalında həmişəlik həkk olunuşdur. O, 9 il bu xalça üçün material toplamışdır. Heydər Əliyevin şəxsiyyətinə, onun ağlına düşüncəsinə, intellektinə pərəstiş edən rəssam uzun illər eskizlər hazırlamış və 1 il 6 ay xalçanın toxunması üzərində işləmişdir.

Xalçanın süjetində İlanlı dağ, Naxçıvan, bu diyarın tarixi-memarlıq abidələri, naxçıvanlıların Heydər Əliyevi yola salması, Bakı əhalisinin isə onu sevinclə qarşılaması təsvir olunmuşdur. Rəssamın əsas məqsədi Heydər Əliyevin daha kamil obrazını yaratmaq olmuşdur. Xalçanın kətabələrində Dədə Qorqudun, Əcəmi Naxçıvaninin, Şah İsmayıl Xətainin əks etdirilməsi də diqqəti cəlb edir. Xalçanın yuxarı hissəsində ölkəmizin dövlət rəmzləri, bayrağımız, gerbimiz, "Quranın ayələri", Yeni Azərbaycan Partiyasının rəmzi də öz əksini tapmışdır. Müəllif Tahir Məcidov öz ürək sözlərini belə ifadə edib: "Bu xalça mənim cənab Heydər Əliyevə olan sevgimdən yaranıbdır. Ona görə ki, ulu

öndərimiz Azərbaycana qayıtmaqla ölkəmizi parçalanmadan xilas etdi. Əgər bu qayıdış olmasaydı, Azərbaycanda çox hadisələr baş verərdi. Mən sözümü, məhəbbətimi bu xalça vasitəsilə demişəm".

**Nəticə**

Ulu öndərə həsr olunmuş bu sənət əsərlərində ümummilli liderə xalq məhəbbəti, el sevgisi öz ifadəsini yüksək səviyyədə tapmışdır. Möhtərəm Heydər Əliyev xalqımızdan cismən ayrılıb. Onu bilirəm ki, bizdən sonra gələn nəsillər onu sevəcək, onun həyat və fəaliyyətindən bəhrələnəcək və öyrənəcəklər. Çünki Heydər Əliyev dühası əbədi ölməzlik qazanmışdır.

Ulu dağların nəhəngliyi uzaq məsafədən göründüyü kimi, biz də tarix inkişaf etdikcə, illər zirvəsindən Heydər Əliyevin dahiliyini daha çox dərk edəcəyik. Mən buna tam əminəm və biz özümüz Heydər Əliyev həyatını, Heydər Əliyev təcrübəsini öyrəndikcə, tanındıqca özümüzü dərindən dərk edəcəyik, onu dünyaya tanıtdıqca biz bir o qədər millətimizə, xalqımıza xidmət edəcəyik.

## ƏDƏBİYYAT

1. Xalq qəzeti, 2004-cü il 9 May.
2. Azərbaycan xalçası, Elmi jurnal, 3-cü cild, № 8, 2013-cü il
3. T.Novruzov "Heydər Əliyev və ədəbiyyat məsələləri", Bakı – 2007
4. M.Əsədova "Muzeyin müasir interpretasiyası", Bakı – 2020

***Naxçıvan Dövlət Universiteti***

**Zenfira Seyidova**

## HAYDER ALIYEV'S PORTRAIT IN WORKS OF ART

The artistic image of the great historical figure Heydar Aliyev is one of the topics of our modern visual art, which is rich in interesting, relevant and colorful works. Many artists of Azerbaijan and the world have created a perfect image of the great leader from an artistic and aesthetic point of view. In the article, the colorful manifestations of endless love and creative interest for the personality of the great leader by various artists have been reflected in a wide variety of forms.

**Keywords:** *Culture, artist, architect, image.*

Зенфира Сеидова

## ПОРТРЕТ ГАЙДЕРА АЛИЕВА В ПРОИЗВЕДЕНИЯХ ИСКУССТВА

Художественный образ великого исторического деятеля Гейдара Алиева является одной из тем нашего современного изобразительного искусства, богатого интересными, актуальными и красочными произведениями. Многие художники Азербайджана и мира создали совершенный образ великого лидера с художественно-эстетической точки зрения. В статье в самых разнообразных формах нашли отражение красочные проявления бесконечной любви и творческого интереса к личности великого вождя со стороны разных художников.

**Ключевые слова:** *Культура, художник, архитектор, образ.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**